# Kitablara həsr edilən sərgi keçiriləcək

**Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illik yubileyinə həsr olunan 10-cu Bakı Beynəlxalq Kitab Sərgisi ilə bağlı mətbuat konfransı keçirilib. Sərgi Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 2-8 oktyabr tarixlərində Bakı Ekspo Mərkəzində keçiriləcək. Bu, müəyyən edilmiş indekslər üzrə regionun ən böyük kitab sərgisidir. Sərgidə 4 qitəni təmsil edən 18 ölkədən 56 xarici təşkilatçı, 110 yerli nəşriyyat-poliqrafiya və kitab sənəti ilə əlaqəli müəssisə iştirak edəcək. Mədəniyyət Nazirliyinin Media və kommunikasiya şöbəsinin müdiri Aynur Kərimova konfrans barədə mətbuat nümayəndələrinə ətraflı məlumat verdi.**






Konfransda Mədəniyyət Nazirliyinin Kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin müdiri Akif Marifli qeyd etdi ki, Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illik yubileyinə həsr olunan sərgidə "The Replika Publishing and Printing", "Çikolata Yayınları", "Kayıhan Yayıncılık", "Phoenix Publishing & Media Group", "East China Normal University Press ltd" kimi xarici nəşriyyat və təşkilatlar iştirak edəcək. Dünyaşöhrətli Con Boyn və Vulf Dorn sərginin fəxri qonaqları olacaqlar. Sərgidə azərbaycanlı yazıçı və şairlər, həmçinin gənc yazarlar və tanınmış xarici yazıçılar qatılacaqlar. Tədbirdə maraqlı simpoziumlar, konfranslar və imza günləri təşkil ediləcək.

Sərginin fəxri yazarlarından olan Rövşən Abdullaoğlu, ilk növbədə beynəlxalq sərgilərin yazıçılar üçün əhəmiyyətindən danışdı. Azərbaycanlı yazıçıların beynəlxalq aləmə çıxmaqda çətinlik çəkdiyini, müasir Azərbaycan ədəbiyyatının beynəlxalq auditoriya tərəfindən çox tanınmadığını və bu sahədə bir çox işlər görməyə çalışdıqlarını dedi. O qeyd etdi ki, əsərlərini beynəlxalq auditoriyaya tanıtmaq üçün yazıçılar özləri daha çox çalışmalı, reklam etməlidir. Ölkəmizdə keçiriləcək Bakı Beynəlxalq Kitab Sərgisi bunun üçün ən səmərəli, effektiv platformadır.

Daha sonra "Qanun" nəşriyyatının direktoru Şahbaz Xuduoğlu ölkədəki kitab sənayesinin mövcud vəziyyəti barədə fikirlərini bölüşdü: "Azərbaycan kitabının problemi təkcə bir təşkilatın, qurumun deyil, bütövlükdə bizim xalqın və cəmiyyətin, yeni məmurdan müəllimə qədər hər kəsin problemidir. Sadə bir statistikanı misal gətirmək olar ki, Azərbaycanda əhalinin 99 faizi təhsillidir, lakin əhalinin 5 faizi kitab oxuyur. Norveçdə əhalinin 99 faizi təhsil alır, amma orada kitab oxuyanlar 80 faizdir. Almaniyada isə əhalinin 60 faizi mütaliə ilə məşğuldur. Orta hesabla hər insan ildə 12 kitab oxumalıdır, ölkəmizdə isə hər kəs ildə ortalama 12 səhifə kitab oxuyur". Şahbaz Xuduoğlu bildirdi ki, sərgidə kitablar 30-90 faiz endirimlə satışa qoyulacaq və bu, kitabsevərlər üçün çox yaxşı fürsətdir. Kitab sərgisi Azərbaycan mədəniyyətinin ən böyük hadisəsi olmalı, hər kəs bunu təbliğ etməlidir.

Qeyd edək ki, 10-cu Bakı Beynəlxalq Kitab Sərgisi ilk dəfə 7 gün davam edəcək və ziyarətçilərin Bakı Ekspo Mərkəzinə xüsusi avtobuslar vasitəsilə gediş-gəlişi təmin ediləcək.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**

Respublika.- 2024.- 1 oktyabr №214.- S.15.